**Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın**

**2022-ci il ərzində fəaliyyəti barədə**

# HESABAT

Daxili İşlər Nazirliyi yanında İctimai Şuraya seçkilər 3 iyun 2021-ci ildə, təkrar seçkilər isə 7 iyun 2021-ci il tarixində keçirilmişdir. Hal-hazırda mandatı olan İctimai Şura 21 iyun 2021-i ildən fəaliyyətə başlamışdır. Fəaliyyətə başladığı ilk ayda İctimai Şuranın Reqlamenti, Etik-Davranış qaydaları, İctimai Şuranın fəaliyyət planı hazırlanıb və qəbul edilib.

**İctimai Şuranın Fəaliyyət Planı hazırlanarkən həm media, həm də sosial şəbəkə vasitəsi ilə ictimaiyyətə müraciət edilib. İctimaiyyət nümayəndələri və Vətəndaş Cəmiyyəti İnstitutlarının təmsilçilərindən daxil olan 50-dək təklif Fəaliyyət Planının hazırlanmasında istifadə edilib və Fəaliyyət Planında əksini tapıb.**

Daxili İşlər Nazirliyi yanında İctimai Şura digər vətəndaş cəmiyyəti institutları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Şuranın təşkil etdiyi tədbirlərə ölkədə fəaliyyət göstərən VCT nümayəndələri dəvət olunur. Həmçinin ictimai əhəmiyyətli tədbirlərdə İctimai Şura da təmsil olunub.

Hesabat müddətində Daxili İşlər Nazirliyi yanında İctimai Şura bir ictimai dinləmə təşkil edib. Həmçinin, İctimai Şurada təmsil olunan Qeyri-Hökumət Təşkilatları əhalinin maarifləndirilməsi istiqamətində həm Bakıda, həm də regionlarda tədbirlər təşkil edib. İctimai Şura Daxili İşlər Nazirliyi tərəfindən təşkil olunan Polis günü ilə bağlı tədbirdə təmsil olunub.

Hesabat müddətində İctimai Şura təmsilçiləri rəsmi görüşlərdə iştirak edib. Torpaqlarımızın azadlığı uğrunda 44 günlük Vətən Müharibəsində şəhid olan Daxili Qoşunların hərbi qulluqçularının ailələri ziyarət olunub.

Daxili İşlər Nazirliyi yanında İctimai Şura **"Narkotik vasitələrin qanunsuz dövriyyəsi istiqamətində görülən tədbirlər haqqında"** Bəyanat qəbul edib. Şura üzvləri Narkotik vasitələrin qanunsuz dövriyyəsi istiqamətində daxili işlər nazirliyi tərəfindən keçirilən maarifləndirmə tədbirlərində iştirak edib. Şura üzvləri 2022-ci il ərzində Masallı, Lənkəran, Şamaxı və Bakının Xətai, Səbail, Nəsimi və Binəqədi rayonlarında keçirilən 7 belə tədbirə qatılıb.

2022-ci il ərzində Daxili İşlər Nazirliyi yanında İctimai Şura 5 iclası keçirilib. Fəaliyyəti müddətində İctimai Şura görülən işlərlə bağlı ictimaiyyətin məlumatlandırılması üçün **8 press-reliz** yayıb. Həmin press-relizlərdən 5-i Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın iclaslarından sonra yayılıb. 3 press-reliz isə Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın iclasdan kənar fəaliyyəti – tədbirlərlə bağlı olub. Daxili İşlər Nazirliyi yanında İctimai Şura fəaliyyəti ilə bağlı məlumatları mütəmadi olaraq sosial mediada da işıqlandırıb.

**02 iyul 2022-ci ildə** Daxili İşlər Nazirliyi yanında İctimai Şuranı Şuranın sədri Əliməmməd Nuriyev, sədr müavinləri Mahirə Əmirhüseynova və Xalid Kazımov Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Azərbaycan Polisi Gününə və 2021-2022-ci tədris ilinin buraxılışına həsr olunan tədbirdə iştirak edib.

**02 iyul 2022-ci ildə** Polis günü ərəfəsində xidmətdə fərqlənən Dövlət Yol Polisi əməkdaşlarının mükafatlandırılması tədbirlərində iştirak edilib.

**01 iyul 2022-ci ildə** Polis günü ərəfəsində Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın üzvləri torpaqlarımızın azad olunmasında şəhid olan daxili işlər orqanları əməkdaşlarının ailələrini ziyarət edilib.

**01 oktyabr 2022-ci ildə** Daxili İşlər Nazirliyi yanında İctimai Şura üzvləri Daxili Qoşunların hərbi qulluqçusu Tural Abdullayevin anım tədbirində iştirak edib.

**8 Noyabr 2022-ci ildə** Zəfər bayramı ərəfəsində Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın üzvləri bu zəfərin qazanılması uğrunda canlarından keçən Daxili Qoşunların hərbi qulluqçularının ailələrini ziyarət ediblər.

**2 Dekabr 2022-ci** ildə isə Daxili İşlər Nazirliyi yanında İctimai Şura Daxili İşlər Nazirliyi ilə birgə "Məişət zorakılığına qarşı mübarizədə polis-vətəndaş cəmiyyəti əməkdaşlığı: mövcud vəziyyət və gözləntilər" mövzusunda ictimai dinləmə təşkil edib. Tədbirdə Daxili İşlər Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin, Birləşmiş Millətlər Təşkilatının nümayəndələri, Vətəndaş Cəmiyyəti İnstitutlarının təmsilçiləri iştirak ediblər.

**2022-ci il aprelin 12-də** Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın növbəti iclası keçirilib. İclasda İctimai Şuranın tərkibində **Polis orqanlarının müvəqqəti saxlama yerlərinin, Yol hərəkətinin təşkili və təhlükəsizliyinin, Şikayətlər və şikayətlərin araşdırılması və İctimai rəyin öyrənilməsi üzrə Monitorinq Qrupları** yaradılıb. Hər bir monitorinq qrupunun ayrıca fəaliyyət planı qəbul edilib.

Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın tərkibində Polis orqanlarının müvəqqəti saxlama yerlərinin Monitorinq Qrupu üzvləri **2022-ci ildə** Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın tərkibində yaradılan Polis orqanlarının müvəqqəti saxlama yerlərinin Monitorinq Qrupnun üzvləri **Qaradağ, Xətai və Binəqədi** rayon Polis İdarələrinin Müvəqqəti Saxlama yerlərində monitorinq aparılıb. Monitorinqin nəticələri ilə bağlı hesabat hazırlanaraq Daxili İşlər Nazirliyinə göndərilib.

**Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın tərkibində yaradılan Yol hərəkətinin təşkili və təhlükəsizliyinin və Şikayətlər və şikayətlərin araşdırılması üzə Monitorinq Qruplarının da Fəaliyyət Planları Daxili İşlər Nazirliyinə göndərilsə də, indiyədək faəliyyətləri üçün uyğun imkan yaradılmayıb.**

**2022-ci il ərzində** vətəndaşlar tərəfindən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi yanında İctimai Şuraya göndərilən 70-ə yaxın müraciət aidiyyatı üzrə Daxili İşlər Nazirliyinə göndərilib. Edilən müraciətlərin əksəriyyəti ilə bağlı tədbirlər görülüb, bəzi müraciətlər araşdırılmaqdadır.

"Gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviq edilməsinə dair" 14 may 2022-ci il tarixdə qəbul edilmiş Tədbirlər Planında nəzərdə tutulan

gənclərin DİN-də və Daxili Qoşunlarda xidmətə həvəsləndirilməsiilə bağlı məsələ Daxili İşlər Nazirliyi yanında İctimai Şurada müzakirə edilərək 5 bənddən ibarət təkliflər hazırlanıb və Daxili İşlər Nazirliyinə göndərilib.